# Küllənə-küllənə

*Sən gəlmədin göy budaqlar*
*Qaldı yellənə-yellənə.*
**Əliqulu Qurbanlı**

Şair dostum, istədik ki,
Arzu güllənə- güllənə.
Dodaqlarda hər bir zaman
Şeir dillənə-dillənə.

Haram qatıb bal yuxuya,
Yazdıq ki, ellər oxuya.
Sözü bal kimi qoxuya
Qızlar tellənə-tellənə.

Çalışaraq qışı-yazı,
Hey qaraltdıq ağ kağızı.
Özümüzdən olub razı
Gəzdik şellənə-şellənə.

Gənclik uzaq düşdü bizdən,
Can ziyası itdi gözdən.
Ötüb keçdi ömrümüzdən
İllər sellənə-sellənə

Hərdən gəlsək də ilhama,
Yetişmədik arzu-kama.
Tikib balaca bir koma
Qaldıq küllənə-küllənə.

**Ağsu**

mədəni-maarif.-2007.-12.-S.59